# Fəxr edir, qürur duyuruq



Bakıda, mavi Xəzərin sahillərində keçirilən birinci Avropa Oyunları başa çatır. Yarışlarda Azərbaycan idmançılarının qazandığı parlaq nailiyyətlər bütün dünya azərbaycanlılarını, o cümlədən Rusiya Federasiyasının Leninqrad şəhərində yaşayan soydaşlarımızı ürəkdən sevindirir, Azərbaycanın idman ölkəsi kimi tanınmasından qürur hissi keçiririk. Fərəhli haldır ki, birinci Avropa Oyunlarında qazanılan qızıl medalların sayına görə Rusiya Federasiyası və Azərbaycan idmançıları yarış cədvəlinin yüksək pilləsində qərarlaşıb.

Biz Vətəndən uzaqlarda yaşasaq da, mavi ekranda birinci Avropa Oyunlarının gedişini diqqətlə izləyir, qürur hissi duyuruq ki, Azərbaycan qüdrətli idman ölkəsinə çevrilmişdir.

Azərbaycan idmançıları medallar uğrunda hər gün inamla yarışaraq xalqımıza sevindirici anlar yaşatmış, demək olar ki, paytaxtın əksər sakinləri yarışlara tamaşa etmiş, Azərbaycan idmançılarına dəstək olmuşlar. Əlbəttə, bu gözəl anlar ölkəmizin idman tarixinə qızıl hərflərlə yazılacaqdır.

Azərbaycan idmançılarının qələbələri "Zəfər Günləri" çərçivəsində bir daha qeyd olundu. Onların şərəfinə keçirilən bu tədbir iştirakçıların hamısında xoş təəssürat yaratdı. Sevindirici haldır ki, Azərbaycan birinci Avropa Oyunları kimi mötəbər yarışa ev sahibliyi etdi. Açılış mərasiminin gözəlliyini sözlə ifadə etmək çətindir. Açılış mərasimi Azərbaycanın mədəniyyətini, inkişafını, nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Güləş, karate, avarçəkmə, triatlon, taekvando və digər idman növlərində qazanılan nəticələr dünya azərbaycanlılarını ürəkdən sevindirir.

Birinci Avropa Oyunlarında Azərbaycan idmançılarının parlaq uğurları Azərbaycanın böyük idman ölkəsi Olimpiya hərəkatında inkişaf etmiş ölkə olduğunu sübut edir.

Avropa Oyunlarının Bakıda keçirilməsi çox təqdirəlayiq hadisə oldu. Oyunların açılışında Azərbaycanın mədəni-milli tarixi, mənəviyyatı, Qobustanı, "Sarı gəlin"i, səmənisi, Novruzu dünyaya göstərildi.

Açılış mərasimində çıxış edən Alim Qasımovun səsində azan sədaları var idi, bu səsdə Şərq dünyası, İslam var idi. Bu səs dünyaya Azərbaycanın islami dəyərlərə köklənən bir dövlət olduğunu bir daha göstərdi.

6 mindən çox oyunçu Bakını, Odlar yurdunu xoş təəssüratla tərk edir. Onların hər birinin qəlbində fərəh hissi aşıb-daşır. İstər idmançılar, istər çoxsaylı qonaqlar bir daha hiss etdilər ki, Prezident İlham Əliyevin titanik səyi nəticəsində Azərbaycan idmanı sürətlə inkişaf edir, onlar üçün hər cür şərait yaradılmışdır. Əminliklə qeyd etmək olar ki, bundan sonra da Azərbaycan idmançıları Avropa və dünya çempionatlarında uğurla çıxış edəcək, fəxri kürsünün ən yüksək pilləsində dayanacaqlar.

Rusiya Federasiyasında yaşayan həmvətənlərimiz adından birinci Avropa Oyunlarında yetərincə qızıl, gümüş və bürünc medallar qazanan Azərbaycan idmançılarını qəlbən təbrik edirəm. Onların uğurlu nəticələrindən qürur duyuruq.

**Elşad İMANOV,**
**Leninqrad şəhər bələdiyyəsinin deputatı.**